Qulu MƏHƏRRƏMLİ - 65

# ŞƏKİLLƏRDƏ... FİKİRLƏRDƏ...













Qulu Məhərrəmli iti ağlı və erudisiyası, zəngin mənəviyyatı, yüksək efir mədəniyyəti, dəyərlərə dərin bağlılığı, səmimiyyətindən doğan saf əxlaqı ilə mənim üçün çox cazibədar şəxsiyyətdir. O, sağlam ruhu, daxili azadlığından doğan müstəqil düşüncəsi, istedadı və peşəkarlığı ilə jurnalistlərimizə, yüksək erudisiyası, ciddiliyi, tədqiqatlarının dərinliyi və gərəkli araşdırmaları ilə alimlərimizə, milli kökə bağlılığı və vətəndaş mövqeyi ilə gənclərimizə nümunədir.

*Gülrux Əlibəyli,*
*professor*

Adı Azərbaycan jurnalistikası tarixinə çoxdan həkk olunmuş, yaddaşlarda daha çox "7 gün" proqramı ilə qalmış Qulu Məhərrəmli qol qoyduğu bütün işləri yüksək sənətkarlıq səviyyəsində edib. Onun ekranın incəliklərinə dərindən bələd olması, sənət prinsiplərinə sadiq qalması və şübhəsiz ki, jurnalist ləyaqətini hər şeydən üstün tutması kimi keyfiyyətləri bizim teleməkanımıza "Səhər" kimi bir proqram bəxş etmişdir.

*Ziyad Səmədzadə,*
*akademik, millək vəkili*

Professor Qulu Məhərrəmli mənim üçün ətrafda gedən mürəkkəb proseslərdən baş çıxaran, mahiyyətə tez varan, müxtəlif dünyagörüşlü insanları birləşdirə bilən müasir düşüncəli, intellektual, doğma insandır. Onunla Türkiyə, Rusiya, Ukrayna və başqa ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə görüşmüş, maraqlı çıxışlarını dinləmiş, vaxtilə böyük ustalıqla apardığı "Dost məclisi" və "Gündəm" proqramlarında çıxış etmişəm. Mənə Azərbaycanı tolerant bir ölkə kimi tanıdan və sevdirən, Qarabağ həqiqətlərini anladan görkəmli bir jurnalist və politoloq kimi ona çox minnətdaram.

*Rostislav Rıbakov,*
*Rusiya EA Şərqşünaslıq*
*institutunun direktoru, akademik*

Professor Qulu Məhərrəmli praktik fəaliyyətilə yanaşı, jurnalistika nəzəriyyəsi sahəsində də məhsuldar çalışan, yeni media düşüncəsinin, azad mətbuat konsepsiyasının formalaşmasına misilsiz töhfələr vermiş böyük alimdir. Onun televiziya, radio və kino yaradıcılığına dair əsərləri audiovizual sahələr üzrə elmin inkişafına ciddi töhfədir. Bir görkəmli şəxsiyyət kimi onun qibtə olunacaq jurnalist taleyi var, dürüstlüyü və obyektivliyi ilə özündə vicdan məfhumunu ehtiva edən az saylı efir adamlarındandır.

*Olqa Karabanova,*
*Rusiya Mətbuatın İnkişafı institutunun*
*direktor müavini, dosent*

Qulu Məhərrəmlinin müasir Azərbaycan ziyalılığının ən parlaq nümayəndələrindən biri, böyük alim, ictimai xadim, jurnalist və ssenaristdir. Azərbaycan jurnalistikasının və elminin inkişafına böyük töhfələr vermiş Qulu müəllim dərin erudisiyası, yüksək peşəkarlığı, seçdiyi həyat prinsiplərinə sadiqliyi ilə cəmiyyətdə layiq olduğu hörməti qazanıb. Bu gün Qulu Məhərrəmli kimi özündə xalq müdrikliyini, ziyalılığı və həqiqi dövlətçilik təfəkkürünü birləşdirən insanlara çox nadir hallarda rast gəlmək olar.

*Rüstəm İbrahimbəyov,*
*yazıçı-daramaturq, Oskar mükafatçısı*

Professor Qulu Məhərrəmlinin həyatı və yaradıcılıq yolu hərdən mənə maraqlı bir kino süjeti kimi görünür. Azərbaycan jurnalistikasının parlaq təmsilçisi və audiovizual sənətlərin elmi platformasında dayanan görkəmli bir alim kimi professor Qulu Məhərrəmli ilə əməkdaşlıq etməkdən ayrıca zövq alıram. Artıq uzun müddətdir ki, rəhbərlik etdiyim Müdafiə Şurası mübahisəli məsələlər üzrə qərar qəbul edərkən nüfuzlu beynəlxalq ekspert kimi onun rəyini əsas götürür.

*Tamara Bokucava,*
*Ş.Rustaveli adına Tbilisi Dövlət Kino və*
*Teatr institutunun Audiovizual sənətlər üzrə*
*Dissertasiya Müdafiəsi Şurasının sədri, professor*

Milli jurnalistikamızın korifeylərindən biri kimi, professor Qulu Məhərrəmli bir səviyyədir, peşəkarlıq etalonudur.

*Elmira Axundova,*
*yazıçı-publisist, millət vəkili.*











